ELM VƏ ALİ TƏHSİL ÜZRƏ
DÖVLƏT AGENTLİYİ

**2024/2025-ci tədris ili üçün Türkiyə ali təhsil müəssisələrində doktorantura və tədqiqat təhsili**

**Tədris ili:** **2024-cü ilin payız semestri**

**Son tarix:** **25.02.2024 (Türkiyə tərəfi üçün)**

**01.03.2024 (Azərbaycan tərəfi üçün)**

**Tədqiqat səviyyəsi üçün ərizə qəbulu 2024-cü il yanvar-mart aylarında həyata keçirilir.**

| | | |
|---|---|---|
| **Hədəf:** | → | Türkiyə ali təhsil müəssisələrində akademik imkanlarının gücləndirilməsi məqsədilə AR vətəndaşlarının doktorantura və tədqiqat təhsil səviyyələrinə qəbulu |
| | | |
| **Hədəf qrupu:** | → | Prioritet elm sahələri üzrə yüksək tədqiqat bacarıqlarına malik gənc tədqiqatçılar |
| | | |
| **Prioritet ixtisas istiqamətləri:** | | Azərbaycan Respublikası vətəndaşlarının xaricdə doktorantura səviyyəsi üçün qəbul olunan prioritet ixtisas istiqamətləri və ixtisasları üzrə namizədlərin seçilməsi<br>Siyahı aşağıdakı keçiddə verilir:<br>http://www.e-qanun.az/framework/42452 |
| | | |
| **Yaş meyarı:** | → | Doktorantura: 35 yaşdan aşağı olmaq<br>Tədqiqat: 50 yaşdan aşağı olmaq |
| **Kvota** | → | Doktorantura- 20 yer<br>Tədqiqat- 5 yer |
| | | |
| **Müddət:** | → | Doktorantura: 4-5 il |

| | | |
|---|---|---|
| | | Tədqiqat: 3-12 ay |
| | | |
| **Qarşılanan xərclər:** | → | Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsi aşağıdakı xərcləri əhatə edir:<br><br>**Doktorantura təhsil səviyyəsi üçün:**<br>- təhsil xərcləri;<br>- yataqxana ilə təmin olunma;<br>- təhsil müddətinin əvvəli və sonunda gediş-gəliş bileti;<br>- aylıq yaşayış xərcləri (6500 TRY);<br>- tibbi sıgorta xərci;<br>- bir illik türk dili kursu.<br><br>**Tədqiqat səviyyəsi üçün yalnız aylıq təqaüd xərcləri (aylıq 12000 TRY) qarşılanır.** |
| | | |
| **İlkin seçim meyarları:** | → | - namizədin bakalavr və ya magistr ali təhsil dərəcəsinə malik olması;<br>- Dissertasiya mərhələsində olan fəlsəfə doktorları və ya fəlsəfə doktoru namizədləri də bu proqrama müraciət edə bilərlər;<br>- müraciət edən iddiaçıların əvvəlki təhsil səviyyəsi üzrə ÜOMG 100 ballıq sistem üzrə 75 baldan aşağı olmaması;<br>- akademik mühitdə çalışan şəxslərə üstünlüyün verilməsi;<br>- müraciət edən namizədlərin ixtisasları üzrə elmi tədqiqat işlərinin olması;<br>- Azərbaycanda dövlət hesabına doktorantura təhsili almaması və ya hazırda doktorantura təhsilinin 50%-ni tamamlamamış olması;<br>- Namizədin mühakimə yeritmək, elmi tədqiqat işinin aparmaq bacarıqlarının olması;<br>- namizədin həqiqi hərbi xidmət keçməsi, yaxud xarici ali təhsil müəssisəsində təhsili başlayanadək çağırışa möhlətinin olması və ya çağırışdan azad edilməsi;<br>- Təhsil alacağı dil üzrə biliyinin yoxlanılması.<br><br>**Qeyd: Hazırda Türkiyədə doktorantura səviyyəsində təhsil alan şəxslər müraciət edə bilməzlər.** |
| | | |
| **Müraciət tarixləri:** | → | **Son tarix:** 25.02.2024 (Türkiyə tərəfi üçün) |

| | | |
|---|---|---|
| | | 01.03.2024 (Azərbaycan tərəfinin elektron ərizəsi üçün) |
| | | |
| **Müraciət proseduru:** | → | Təqaüd proqramına müraciət edəcək namizədlər **hər iki ölkənin** müvafiq elektron ərizə sisteminə müraciət etməlidirlər:<br>- Türkiyə elektron ərizə sistemini doldurub təsdiq etməlidirlər: https://www.turkiyeburslari.gov.tr/<br>**Qeyd:** Türkiyə tərəfinin elektron ərizə portalı üzrə müraciət nömrəsi qeyd olunan səhifənin şəkli (“screenshot”u) ayrıca **qəbul haqqında sənəd bölməsinə** yüklənməlidir.<br>- Elm və Təhsil Nazirliyinin elektron ərizə sisteminə müraciət etməlidirlər: https://portal.edu.az/ |
| | | |

**Müraciət üçün tələb olunan sənədlər:** →

| **Sənədin adı** | **Tələb** | **Qeyd** |
|---|---|---|
| Diplom(lar) və əlavəsi(ləri) | Namizədlərin diplom və əlavələri notarial qaydada təsdiq edilməlidir. | Ali təhsilini başa vurmuş, lakin bu və ya digər səbəblər üzündən seçimin aparıldığı müddətdə ali təhsil haqqında sənəd almamış namizədə bu barədə ali təhsil müəssisəsi tərəfindən verilmiş arayış təqdim edilməlidir. |
| Hərbi bilet və ya hərbi xidmətdən möhlət haqqında sənəd | Müvafiq səhifələr notarial qaydada təsdiq edilməlidir. | Əsas səhifə ilə yanaşı müvafiq məlumatların qeyd olunduğu səhifələr də təqdim edilməlidir. |
| Tövsiyə məktubları | 2 ədəd | Hər iki tövsiyə məktubu ərizəçinin |

| | | | | |
|---|---|---|---|---|
| | | | | doktorantura səviyyəsi üzrə təhsil alma bacarıqları barədə rəyi özündə ehtiva etməli və professor-müəllim tərəfindən rəsmi şəkildə təsdiqlənmiş olmalıdır. |
| | | Sağlamlıq haqqında arayış | Sağlamlıq haqqında arayışın forması AZS-086/1 olmalıdır. | - |
| | | Tədqiqat işi | Azərbaycan dilində və 2000 sözdən az olmayan həcmdə. | Tədqiqat planı: qısa xülasə, metodologiya, tədqiqat sualı, biblioqrafiya. |
| | | Elmi-məqalələrin surətləri (mövcud olduğu halda) | Xarici ölkələrin təsir gücünə (impakt faktoruna) malik olan, istinad indeksli elmi nəşrlərində dərc olunmuş elmi məqalələr olmalıdır. | - |
| | | | | |
| **Müraciətin izlənməsi:** | → | Namizədlər müraciətlərini Elektron Ərizə Sisteminin “Şəxsi kabinet” bölməsindən izləyə bilərlər. | | |
| **Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi ilə əlaqə:** | → | Sözügedən təqaüd proqramı ilə bağlı suallarınızı htpinfo@eatda.edu.az elektron poçtuna ünvanlaya bilərsiniz. Bununla yanaşı, mütəmadi verilən suallar (FAQ) bölməsi ilə də tanış olmağınız mümkündür. | | |